2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 98 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 03 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən Sitalçay bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Qasımov Rövşən İsmayıl oğlunun 01 yanvar 2015-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırmaya qəbul edilmişdir.

Qeydə alınmış namizəd R.İ.Qasımov 44 saylı Sumqayıt-Xızı seçki dairəsinin dairə seçki komissiyasının 30 dekabr 2014-cü il tarixli, 28/606 saylı qərarından şikayət verərək həmin qərarın ləğv edilməsini və Sitalçay bələdiyyəsi üzrə seçkinin nəticələrinin ləğv olunmasını xahiş etmişdir.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Araşdırma ilə müəyyən olunmuşdur ki, 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən Sitalçay bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Qasımov Rövşən İsmayıl oğlu səsvermə günü seçki dairəsinin 32 saylı məntəqə seçki komissiyasında ehtimal olunan pozuntular barədə şikayətini dairə seçki komissiyasına 29 dekabr 2014-cü il tarixdə təqdim etmişdir. Müraciət dairə seçki komissiyası nəzdində ekspert qrupunun uzvu tərəfindən araşdırmaya qəbul edilmiş və müəyyən edilmişdir ki, şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 maddəsinin və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın tələblərinin pozulması ilə, yəni şikayətvermə müddətinin ötürülməsi ilə daxil olmuşdur. Ona görə də qanunvericiliyin tələblərinə uyğun olaraq şikayətin onu göndərən şəxsə geri göndərilməsi barədə rəy verilmişdir. Göstərilənlərə əsasən dairə seçki komissiyasının hazırda

mübahisələndirilən 30 dekabr 2014-cü il tarixli, 28/606 saylı qərarı ilə müraciət müddətin ötürülməsi ilə verildiyindən geri qaytarılmışdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

"Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 7.1-ci maddəsinə əsasən ekspert şikayətin Seçki Məcəlləsi və bu Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Araşdırma ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən Sitalçay bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Qasımov Rövşən İsmayıl oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş olmuş 01 yanvar 2015-ci il tarixli 98 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 30 dekabr 2014-cü il tarixli, 28/606 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov